**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ŞƏHƏR MƏDƏNİYYƏTİ: XIX – XX ƏSRLƏRDƏ BAKI VƏ DAŞKƏND ŞƏHƏR MƏDƏNİYYƏTLƏRİNİN MÜQAYİSƏSİ

İxtisas: 5502.01- “Ümumi tarix”

Elm sahəsi: **Tarix**

İddiaçı: **Oğuz Kağan Mehmet oğlu Bayrakdar**

fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı - 2023**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor<br>**Əsməd İmamməmməd qızı Muxtarova** |
| Rəsmi opponentlər: | tarix elmləri doktoru, professor<br>**Sevinc İsrafil qızı Əliyeva** |
| | tarix elmləri doktoru, professor<br>**İkirəm Kərim oğlu Ağasiyev** |
| | tarix üzrə fəlsəfə doktoru<br>**Bircə Əfqan qızı Bayramova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri: | tarix üzrə elmləri doktoru, professor<br>**İbrahim Xudaverdi oğlu Zeynalov** |
| Dissertasiya Şurasının elmi katibi: | tarix üzrə fəlsəfə doktoru, dosent<br>**Kəmalə Telman qızı Nəcəfova** |
| Elmi seminarın sədri: | tarix üzrə elmlər doktoru, dosent<br>**Aidə Rəhim qızı Bağırova** |

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
BAKI DÖVLƏT UNİVERSİTETİ p.h.ş.
Ministry of Science and Education of the Republic of Azerbaijan
Baku State University l.e.p.l.
BDU ELMİ KATİB
SCIENTIFIC SECRETARY
İmzanı təsdiq edirəm:
"09" 10 20 23

# I.DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** 44 gün davam edən İkinci Qarabağ müharibəsi nəticəsində Azərbaycan Respublikası Qarabağda nəzarəti ələ keçirərək torpaqlarını geri qaytardı. Bölgədə yaşanan iqtisadi, ictimai-siyasi dəyişikliklərlə yanaşı, "şəhərçilik" (urbanizm) sahəsində də layihələr hazırlandı. Müharibədən sonrakı dövrdə bərpa quruculuq işlərinin aparılması prosesində bir tərəfdən "Ağıllı şəhər" konsepsiyasına uyğun planlaşdırma aparılırkən, digər tərəfdən, Qarabağ şəhərlərində Azərbaycan mədəniyyətinə malik olan milli elementlər/simvollar üzə çıxarılmağa başlandı. Azərbaycan mədəniyyətinin əks olunduğu, milli dinamikanın ön plana çəkildiyi, yeni kimliyə malik olan şəhərlər qloballaşan dünyada xüsusilə Qarabağın, ümumiyyətlə Azərbaycanın milli kimliyinin qorunub saxlandığı məkanlara çevrilirlər. Milli ideologiyanın əks olunduğu bu şəhərlər, mədəniyyətin qorunub ötürüldüyü, sahib olduğu dəyərləri müəyyən edən "kimlikli şəhərlər" olacaqlar. Bütün bunlar şəhərlə bağlı araşdırmaların nə qədər əhəmiyyətli olduğunu aydın şəkildə göstərir. Bu baxımdan zəngin tarixi irsi olan Bakı və Daşkənd kimi şəhərlərin mədəni həyatda inkişaf prosesinin öyrənilməsi mövzusunun aktuallığı şübhəsizdir.

Bir neçə yüz nəfərdən ibarət əkinçilik icmalarının yaranması ilə insanların oturaq həyata keçməsi nəticəsində, indiki böyük şəhərlərin təməli olan qədim şəhərlərin əsası qoyuldu. İlk şəhər quruluşları Mesopotamiya, Cənubi Amerika, Hind vadisi, Anadolu, Misir kimi coğrafiyalarda yaranmış və günümüzə qədər inkişaf edərək sosial-iqtisadi, hərbi gücə malik yaşayış məntəqələrinə çevrilmişlər. İnsan tələbatlarının idarə olunmadan zaman içərisində fiziki dəyişməsi urbanizasiya prosesinin bu günə qədər davam edən inkişafını təmin etmişdir. Bu baxımdan şəhər tarixini öyrənmək bugünkü şəhərləri dərk etməyimizə kömək edəcəkdir.

İlk dəfə fransız tədqiqatçıları[1] tərəfindən vurğulanan, insan, cəmiyyət və dövlət haqqında ümumi təsəvvür formalaşdıran

---

[1] Aslanoğlu, R. Kent, Kimlik ve Küreselleşme / R.Aslanoğlu. - Bursa: Asa Kitabevi, -1998. - 248 s.

“sivilizasiya” anlayışı zamanla şəhərdə yaşamaqla eyniləşmişdir. Tarixi prosesdə meydana çıxan və konseptual olaraq ilk dəfə Avropada istifadə edilən bu termin daha sonra dünyanın əksər ölkələrinə də yayılmışdır. Zaman keçdikcə həm “sivilizasiya”, həm də “şəhər” haqqında araşdırmalar artmış, sivilizasiya ilə şəhər arasındakı əlaqəni açmağa çalışan əsərlər meydana çıxmışdır[2]. Buna görə də araşdırmamızda şəhər və sivilizasiya arasındakı əlaqəyə də diqqət yetirilib.

Bu prosesdə Qərb öz dəyərlərinə söykənən sivilizasiya tərifini irəli sürmüşdür. İdeal şəhər sivilizasiyasının Qərbə bənzər normalara malik olacağı[3], Şərqin Qərb vasitəsilə və ya Qərbə bənzəyərək “sivilizasiya”ya sahib olacağı fikirləri şərqşünas tədqiqatçıların araşdırmalarında üstünlük təşkil etməkdədir. Araşdırmamızda bu gün də davam edən və səhv olduğunu hesab etdiyimiz bu baxışa qarşı çıxılmış, Şərq coğrafiyasının özünəməxsus bir şəhər quruluşuna malik olduğu və bu şəhərlərin də öz xüsusiyyətlərini əks etdirən sivilizasiyaların/kimliklərin olduğu vurğulanmışdır.

Araşdırmamızda nümunə kimi Bakı və Daşkənd şəhərləri seçilmişdir. Bu şəhərlərin seçilməsi aşağıdakı səbəblərə əsaslanır:

- Həm Daşkənd, həm də Bakı oxşar tarixi keçmişə malikdir. Hər iki şəhərin qədim məskunlaşma mərkəzi, həmçinin bölgədə uzun müddət davam edən urbanizasiyanın mərkəzi olması onların müqayisəli təhlilini mümkün edir;
- Hər iki şəhər paytaxt şəhərlərdir. Digər şəhərlərlə müqayisədə paytaxtların hər zaman ön plana çıxdığı məlumdur. Araşdırılan dövrdə də digər şəhərlərlə müqayisədə, Bakı və Daşkəndin yerləşdikləri regionun siyasi, mədəni və iqtisadi mərkəzləri olmaları bu seçimi şərtləndirmişdir;
- Hər iki şəhərin bölgədə maraqlı bir çox siyasi qüvvələr tərəfindən işğala uğraması da digər oxşar cəhətdir;

---

[2] Gezgin, M.F. Cemaat – Cemiyet Ayrımı ve Ferdinand Tönnies // Sosyoloji Konferansları, - 1998. - № 22, - s.183-201, Gökalp, Z. Türkçülüğün Esasları / Z.Gökalp. -Ankara: Kültür Bakanlığı Yayınları, - 1990. – 205 s., Fishmann, R. 20.yüzyılda kent ütopyaları: 20. yüzyıl kenti / R.Fishmann. -Ankara: İmge Kitabevi, - Tərcümə edən: Duygu toprak, - 2002. – 296 s.

[3] Weber, M. Şehir: Modern Kentin Oluşumu / M.Weber. - İstanbul: Yarın Yayınları, - Tərcümə edən: Musa Ceylan, - 2012. – 317 s.

• XIX əsrdə Bakı və Daşkəndin taleyini dəyişən əsas element rus obrazı idi. XIX əsrdə hər iki şəhərdə hökmranlıq edən Rusiya XX əsrdə də təsirini davam etdirmiş və bu təsir həm Azərbaycanın, həm də Özbəkistanın müstəqilliklərini bərpa etdikləri 1991-ci ilə qədər davam etmişdir. Şəhərlərin eyni xarici gücün nəzarətində olması da müqayisəni mümkün edən amillərdən biridir;

• Bundan başqa, həm Bakıda, həm də Daşkənddə türk-islam sivilizasiyasının kökləri mövcuddur. Eyni ümumi kimlik elementlərinin mövcudluğu da tədqiqat üçün bu şəhərlərin seçilməsinə əsas vermişdir;

• Hər iki paytaxt şəhəri Sovet İttifaqının dağılmasından sonra yeni müstəqil respublikaların siyasi-inzibati mərkəzlərinə çevrilmiş, milli ideyaları dəstəkləyəcək şəkildə yenilənmişdir;

• Hər iki şəhərdə ölkələrinin siyasi, iqtisadi və mədəni xüsusiyyətlərini əks etdirən –Bakıda neft, Daşkənddə pambıq– simvollar mövcuddur.

Bu və buna bənzər bir sıra digər mülahizələr tədqiqatımızda müqayisəli təhlil üçün Bakı və Daşkənd şəhərlərinin seçilməsini şərtləndirmişdir. Tədqiqatda Bakı və Daşkənd şəhər sivilizasiyalarının oxşar və fərqli cəhətləri müəyyən edilmişdir. Bakının Qafqazın mərkəzində, Daşkəndin isə Orta Asiyanın himayədar şəhərləri arasında olması, eyni məqamlara əsaslanaraq digər şəhərləri də tədqiq etməyə kömək edəcəkdir. İlk növbədə, şəhərlərin ortaq xüsusiyyətlərinə görə müəyyən edilən dinamikasını digər türk dövlətlərinin paytaxtlarını da dəyərləndirmək üçün istifadə etmək olar. Hər iki şəhərdə Rusiyanın güclü təsirinin olması, Çar və Sovet Rusiyası tərəfindən işğal edilmiş digər şəhərlərin də araşdırılması üçün istiqamətverici ola bilər. Belə ki, müstəqillik əldə etdikdən sonra hər iki şəhərin milli ideologiyalarının əhəmiyyəti və bu ideologiyalara paralel transformasiya olması, digər müstəqil dövlətlərin şəhərləri haqqında da məlumat almağımıza kömək edir. Bütün bu oxşarlıqlara əsaslanaraq, Bakı və Daşkəndin müqayisəli araşdırılması, eyni zamanda digər şəhərlərin də öyrənilməsi baxımından vacibdir. Bununla belə, iki şəhər arasında fərqlərin olması şəhərşünaslıq üçün də dəyərlidir. Şəhərlərdə nəzərə çarpan mədəni fərqliliklərin müəyyən edilməsi, sənaye və kənd təsərrüfatı

məhsullarının tədqiqi, şəhərlərin şəhər transformasiyasında müxtəlif formalarının müşahidə edilməsi bizə digər şəhərlər kimi Bakı və Daşkəndin də sivilizasiyanın/ kimliyin formalaşmasında özünəməxsusluğunu üzə çıxarmağa kömək etmişdir. Bu fərqlərə əsaslanaraq, öz sivilizasiyasına və xüsusiyyətlərinə malik olan şəhərlərin öz kimliyinə sahib olduğu qənaətinə gəlinmişdir.

Qloballaşmanın ön plana çıxdığı bir zamanda qlobal güclərin mədəni elementlərinin dünya miqyasında yayılması müşahidə olunur. Corc Ritzer bu vəziyyəti "Cəmiyyətin McDonaldlaşması" anlayışı ilə izah edərək, Amerika həyat tərzinin qlobal ölçülərə çatdığını bildirir[4]. Bütün dünyada təsirli olan qloballaşmanın əsas yeri şəhərlərdir. Həm qloballaşma, həm də modernləşmə ilə bir-birinə bənzər şəhərlərin yaradılması mədəniyyət elementləri ilə təchiz olunmuş şəhərlərin kimliyinə/sivilizasiyasına xələl gətirir. Bu səbəbdən də hazırki araşdırmada həm də Bakı və Daşkənd şəhər sivilizasiyalarının formalaşmasında təsirli olan və bu iki şəhərin kimliklərini qloballaşmadan qoruyan dinamikalar ortaya qoyulmuşdur.

Şəhərşünaslıq sosial elmləri vurğulayan "Annallar məktəbi" ilə başlamışdır və günümüzə qədər də davam etməkdədir. "Şəhər" anlayışı tək bir köməkçi elmlə izah edilə bilməyəcək qədər mürəkkəb olduğundan, elm adamları daima onun özünəməxsus xüsusiyyətlərini təsvir etməklə, sərhədlərini çəkməyə çalışmışlar. Tarix, ədəbiyyat, dil, memarlıq, iqtisadiyyat, coğrafiya, sosiologiya, psixologiya kimi elmlər şəhərin "nə olduğu" ilə bağlı müxtəlif şərhlər irəli sürürlər.

Ümumilikdə J.Reader, M.Veber, L.Huot, İbni Haldun, R.Sennet, L.Virth, K.Davis, D.Harvey, A.Kirkpatric kimi tədqiqatçılar şəhərlərlə bağlı bir çox əhəmiyyətli araşdırmalar aparmışlar ki, hazırki tədqiqatda yeri gəldikcə bu araşdırmalardan da istifadə edilmişdir.

Dissertasiya işi çərçivəsində Bakı və Daşkənd şəhər kimliklərinin formalaşmasına təsiri baxımından, bəhs edilən dövrdə Mərkəzi Asiya və Qafqazın siyasi tarixi məsələlərinə də toxunulmuşdur. Bu məqsədlə müraciət edilmiş əsərlər sırasında

---

[4] Ritzer, G. Toplumun McDonaldlaşması / G.Ritzer. – İstanbul: Ayrıntı Yayınları, - Tərcümə edən: Akın Emre Pilgir, - 2019. -379 s.

E.V.Körtisin 1911-ci ildə nəşr olunmuş “Türküstan: Asiyanın ürəyi”[5] əsərini qeyd edə bilərik. XX əsrin əvvəllərində Türküstan coğrafiyasına səyahət edən Körtis dövrün sosial-iqtisadi quruluşunu, şəhərlərin vəziyyətini qeyd etmişdir. Q.Fosterin 1798-ci ildə nəşr etdirdiyi əsərdə[6] XVIII əsrdə regionunun tarixi və sivilizasiyası haqqında geniş məlumat verilmişdir.

Orta Asiya türk respublikalarının tarixi və inkişaf prosesi ilə bağlı hazırlanan araşdırmaların bir digər nümunəsi Mehmet Sarayın Türkiyədə hazırladığı “Yeni türk respublikaları tarixi” kitabıdır[7]. 2014-cü ildə Türk Tarix Qurumu tərəfindən nəşr olunan kitabda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkmənistan respublikalarının tarixi, ədəbiyyatı, mədəniyyəti və sivilizasiyası haqqında konkret məlumatlar verilir.

“Şəhər mədəniyyəti”, “şəhər kimliyi” məsələləri Azərbaycan tarixşünaslığı üçün yeni mövzudur. Ümumilikdə, şəhərlərin tarixi, cəmiyyətin ictimai-siyasi vəziyyətini əks etdirən müəyyən tədqiqatlar olsa da, “şəhər kimliyi” kontekstində araşdırmalar aparılmamışdır. Bu baxımdan, tərəfimizdən yazılmış “Şəhər şəxsiyyəti” adlı akademik məqalə bu istiqamətdə ilk nümunə hesab oluna bilər[8]. Bu səbəbdən, dissertasiyanın xüsusən I fəslinin araşdırılması zaman əsasən xarici tədqiqatçıların əsərlərindən istifadə edilmişdir. İlk növbədə dissertasiyada “şəhər kimliyi” anlayışına aydınlıq gətirilmişdir. Bu məqsədlə professor Nuri Bilginin “Kimlik inşası” və “Sosial düşüncədə şəhər kimliyi”[9] əsərlərindən istifadə edilmişdir. Digər bir araşdırmaçı M.N.Bostancı da oxşar şərhlərlə “kimlik” mövzusunda tədqiqatlar aparmışdır. Bundan başqa Ş.Çöl, H.Bal, R.Aslanoğlu, H.Aydoğdu, A.Dolu, İ.Oğurlu, E.İlqar, J.D.Anthony, E.Kortan, I.Areso, İ.Tekeli və b. tədqiqatçılar da öz araşdırmalarında

---

[5] Curtis, W.E. Turkestan: “The Heart of Asia” / W.E.Curtis. – New York: Hodder & Stoughton, George H. Doran Company, -1911. - 412 p.
[6] Foster, G. A journey from Bengal to England Through the Nothern part of India, / G.Foster. - London: R. Faulder, - 1798. - 642 p.
[7] Saray, M. Yeni Türk Cumhuriyetleri tarihi / M.Saray. - Ankara: Türk Tarih Kurumu Yayınları, - 2010. – 513 s.
[8] Bayrakdar, O. K. Bir anlayış olaraq şəhər şəxsiyyəti // - Bakı: Tarix və Onun Problemləri, - 2021. №3, - s. 47-51.
[9] Bilgin, N. Kimlik inşası / N.Bilgin. - Ankara: Aşina Kitaplar, - 2007. 330 s.

"şəhər kimliyi" məsələlərinə toxunmuşlar.

Azərbaycan tarixşünaslığında şəhərlərlə bağlı bir çox araşdırmalar mövcuddur. Ümumi şəkildə nəzər salındığında, Azərbaycanda şəhərsalma tarixi[10], şəhər planlaması, şəhər memarlığı kimi sahələrdə akademik tədqiqatlar geniş yer tutur. Bundan əlavə, Azərbaycan şəhərləri haqqında ensiklopedik məlumat verən nəşrlər də mövcuddur[11]. Bu tədqiqatların böyük bir qismi Azərbaycanda, müəyyən bir qismi isə xaricdə aparılmışdır. Şəhərlərin inkişafı, demoqrafik vəziyyəti, mədəniyyəti, şəhər adlarının tarixi-coğrafi və linqvistik təhlili ilə bağlı müxtəlif tədqiqatlar aparılmışdır. Şəhərlərə məxsus qala və limanlar da tədqiqat obyekti olmuş, tarixi prosesdə tədqiq edilmişdir.

Qeyd etmək lazımdır ki, mövcud olan bu əsərlərin əksəriyyəti memarlıq sahəsinə aiddir. Məsələn, 5 cilddən ibarət "Azərbaycan memarlıq tarixi" bu sahədə aparıcı mənbə hesab olunur. G.Məmmədovanın "Heydər Əliyev və Azərbayan memarlığının inkişafı" adlı araşdırması da, memarlıq sahəsinə aid olan tədqiqatlara nümunədir. Rəna Əfəndizadə, Rüfət Ağazadə kimi şəxslər də Azərbaycan memarlığı sahəsində araşdırmalar aparmışlar.

Memarlıq sahəsində aparılan araşdırmalarda xüsusi olaraq qeyd edilməli olan şəxslərdən biri də Elçin Əliyevdir. Müəllifin Azərbaycan memarlığı və şəhərlərdəki memarlıq vəziyyəti ilə bağlı çox sayda əsərləri vardır. Onun "Azərbaycanın arxitektura abidələri: uşaqlar üçün kitab" adlı əsərində Azərbaycan abidələrinin yeni nəsillərə öyrədilməsi[12], ölkəsini həm daxildə, həm də xaricdə uğurla təmsil edən memarların cəmiyyətdə tanıdılması qarşıya məqsəd olaraq qoyulmuşdur. Bunlardan əlavə, E.Əliyevin Bakıdakı memarlıq abidələrinin və tikililərinin memarlıq təsvirlərini yoxladığı, binaların

---

[10] Vəlişov, N. Azərbaycan şəhərləri: respublika tabeliyində olan şəhərlər və qədim Azərbaycan şəhərləri: ensiklopedik bilgilər / N.Vəlişov. - Bakı: Vektor Nəşrlər Evi, - 2013. - 288 s.

[11] Tapdıqoğlu, N. Azərbaycan ərazisinin şəhərləri: Respublika ərazisindəki qədim və müasir şəhərlər: ensiklopedik bilgilər / N.Tapdıqoğlu. - Bakı: Zərdabi Nəşr MMC, - 2019. - 520 s.

[12] Алиев, Э. Архитектурные памятники Азербайджана: книга для детей / Э.Алиев. - Баку: б. и., - 2017. - 339 с.

qapılarına diqqət yetirdiyi əsərləri də var[13].

Bakı memarlığı ilə bağlı, xüsusilə Bakı, ümumən Azərbaycanda urbanizasiya haqqında əsərlər yazan Şamil Fətullayev bu sahədə ön plana çıxan şəxslərdəndir. Müəllif bu sahədə bir neçə kitab yazmış, Bakının XIX-XX əsrlər memarlığı, şəhər sivilizasiyası, şəhərin inkişafı haqqında ətraflı məlumat vermişdir. "Bakıda şəhərsalma XIX əsr və XX əsrin əvvəllərində" və "Bakı memarları: XIX əsrin sonu - XX əsrin əvvəllərində" kitablarında Bakının paytaxt olması, Bakının şəhər planı, Rusiyanın şəhərin inkişafına təsiri kimi mövzularla birlikdə, Bakı şəhərinin yenidən qurulmasında rolu olan memarlar haqqında da ətraflı məlumatlar verilir. Şamil Fətullayevin daha bir araşdırması "Bakının memarlıq ensiklopediyası" adlanır. Əsərdə Bakının memarlıq tarixini təhlil edən müəllif, şəhərin genişlənməsini və Bakının şəhər planını araşdırır[14]. Bu araşdırmalardan əlavə Şamil Fətullayev "XIX əsrin sonu - XX əsrin əvvəlləri Bakı memarlığı" adlı 12 fəsildən ibarət olan kitabında memarlar və bu memarların Bakıda gördüyü işlər; XIX əsrin sonu XX əsrin əvvəllərində formalaşmağa başlayan Bakı memarlığı və günümüzə qədər gəlib çatmış memarlıq abidələri haqqında məlumatlar verir.

Elmira Muradəliyeva Azərbaycanda şəhərlərin tədqiqi ilə məşğul olan tədqiqatçılardan biridir. Müəllif azərbaycan, türk, rus, ingilis və alman dillərində bir çox araşdırmalar nəşr etdirmişdir. E. Muradəliyevanın dissertasiyamızın mövzusu ilə bağlı görkəmli işi "XIX əsrin ikinci yarısında Şimali Azərbaycan şəhərləri" əsəridir[15]. Əsər ümumilikdə üç hissədən ibarətdir. Kitabda kapitalizmin təsiri altında olan şəhərlərin inkişaf prosesi araşdırılarkən Bakının inzibati sistemi və demoqrafik dəyişiklikləri də göstərilir. Kitab Azərbaycanın şəhər həyatına aydınlıq gətirən əsərdir. Müəllifin

---

[13] Əliyev, E. Məkanların astanasında Bakı tarixini yazan qapılar: 1867-1913 = Baku Doors and Entrance Halls: 1867-1913 = Au seuil des lieux les portes qui ont écrit l'histoire de Bakou : 1867-1913 / E.Əliyev. - Bakı: n. y., - 2011. - 379 s.

[14] Fətullayev, Ş. Bakı memarları XIX əsrin sonu – XX əsrin əvvəllərində / Ş.Fətullayev. − Bakı: Şərq-Qərb Nəşriyyat Evi, − 2013. − 296 s.

[15] Мурадалиева, Э. Города северного Азербайджана во второй половине XIX в. / Э.Мурадалиева; рец. М.А.Исмаилов; науч. ред. С.С.Алияров. - Баку: Изд. Бакин. ун-та, - 1991. - 168 с.

region şəhərlərini tədqiq etdiyi "Böyük İpək Yolu üzərində Qafqaz şəhərləri" adlı araşdırmasında Qafqaz şəhərlərinin tarixi prosesdə transformasiyasına nəzər yetirilir. Bununla yanaşı, Elmira Muradəliyeva Azərbaycan şəhərləri ilə bağlı da bir sıra məqalələr yazmışdır. Məsələn, "Tarix və onun problemləri" elmi, nəzəri jurnalında dərc olunmuş "Azərbaycan şəhərləri Böyük İpək Yolu üzərində" adlı məqalə belə araşdırmalardan biridir[16].

Ümumi şəhər və Azərbaycan şəhərləri ilə bağlı araşdırmalarla yanaşı, Bakı ilə bağlı tədqiqatlar da az deyil. Nəsiman Yaqublu, Şamil Fətullayev-Fiqarov, Kəmalə Ocaqova, Qılman İlkin, Sevda Dadaşova, Çingiz Qacar, Fuad Tağıyev Bakıda fəaliyyət göstərən və bu sahədə araşdırmalar aparan müəlliflərdən bəziləridir.

Sara Aşurbəyli Bakı şəhəri tarixşünaslığında önə çıxan əsas adlardan biridir. Onun Bakı haqqında müxtəlif dillərdə çap olunmuş kitabları var: Azərbaycan və rus dillərində nəşr edilmiş "Bakı şəhərinin tarixi (orta əsrlər dövrü)", "Şirvanşahlar dövləti" və s. Araşdırmamızda 2017-ci ildə Türkiyədə nəşr edilmiş "Bakı şəhərinin tarixi" kitabından xüsusilə istifadə edilmişdir. Kitab 5 fəsildən ibarətdir. Kitabın birinci hissəsində arxeoloji məlumatlar əsasında Abşeron və Bakının erkən tarixi, ikinci hissəsində "Erkən feodal dövründə Bakının siyasi tarixi", üçüncü hissəsində "Şirvanşahların hakimiyyəti dövründə Bakı", dördüncü hissədə "Bakı XVI və XVII əsrin birinci yarısında", son hissədə "XVIII əsrdən XXI əsrə qədər" mövzularından bəhs edilir. Kitabda XX əsrin əvvəllərinə qədər olan prosesdən bəhs edilmiş, şəhərin siyasi tarixi, iqtisadi vəziyyəti və sosial əlaqələri izah edilmişdir. S.Aşurbəylinin Bakı şəhəri ilə bağlı araşdırmalarının əhəmiyyəti danılmazdır[17].

Fuad Tağıyevin "XIX əsrin birinci yarısında Bakı şəhərinin tarixi (1806-1859)" adlı kitabı Bakı şəhər tarixini öyrənmək üçün əhəmiyyətli əsərlərdən biridir. Rus dilində yazılmış və 4 hissədən ibarət olan əsərin birinci hissəsində Bakı xanlığının Rusiya

---

[16] Muradaliyeva, E. Toprağın Kanı / E.Muradaliyeva. İstanbul: Teas Press, - 2017. -177 p.

[17] Aşurbeyli, S. Bakü şehrinin tarihi / S.Aşurbeyli. - İstanbul: Teas Press, - Tərcümə edən: Sevinç Üçgül, - 2017. - 504 s., Aşurbəyli, S. Şirvanşahlar dövləti / S.Aşurbəyli. – Bakı: Avrasiya press, - 2006. – 416 s.

imperiyası tərəfindən işğalı yer alır. Müəllif tarixi prosesi təsvir etdikdən sonra ikinci hissədə rayon, əhali və şəhər rəhbərliyi haqqında məlumat verir. Bu bölmədə şəhərin etnik quruluşu da araşdırılmış və şəhərin gözəlləşdirilməsi üçün Rusiya rəhbərliyinin gördüyü işlər nümunələrlə verilmişdir. Digər iki bölmədə isə Bakı şəhərinin iqtisadiyyatı, təhsil fəaliyyəti və səhiyyə xidmətləri araşdırılmışdır. Ümumilikdə, F.Tağıyev tərəfindən, XX əsrin əvvəllərində Bakıda çar administrasiyasının hökmranlığı ilə şəhərdə yaşanmış sosial-iqtisadi dəyişikliklər tədqiq edilmişdir[18].

Bakının tarixi həm də onun xalqının tarixidir. Bakıda yaşayan insanlar Bakı sivilizasiyasının və Bakı şəhəri kimliyinin formalaşmasına təsir göstəriblər. Bakını insanları ilə birlikdə araşdıran və Bakı araşdırmalarında mühüm yer tutan tədqiqatlardan biri də Qılman İlkinin "Bakı və bakılılar" kitabıdır. Tədqiqatda şəhərin qədim tarixi, Rusiyanın tərkibində olduğu dövr, neft bumu, Bakının kəndləri və əhalisi haqqında müxtəlif məlumatlar verilir. Kitabda şəhərin sivilizasiyasının formalaşmasına təsir göstərmiş elit təbəqə və ziyalılar haqqında da araşdırmalar aparılmışdır[19].

Bakı araşdırmaları sahəsində önə çıxan görkəmli simalardan biri də Anar Vəliyevdir. A.Vəliyev şəhərin sosioloji transformasiyası ilə bağlı müxtəlif araşdırmalar aparıb, Bakının inkişafını, müstəqillikdən sonrakı yenilənməsini, "Dubay modeli"ni, Bakı zənginlərinin şəhərə töhfəsini, Bakının yeniləşməsini sosioloji baxımdan dəyərləndirmişdir[20].

Bakı kimi Daşkənd şəhəri də bir çox tədqiqatların obyekti olmuşdur. Elmi ədəbiyyatlara nəzər salındıqda, Daşkəndlə bağlı aparılan araşdırmaların əksəriyyətinin ingilis dilində yazıldığı məlum olur. Tədqiqatımızda ilk növbədə Daşkənd haqqında yazılmış ensiklopediya materiallarından istifadə edilmişdir: V.V.Bartoldun "İslam Ensiklopediyası" üçün yazdığı "Daşkənd" məqaləsi; "İslam Ensiklopediyası"nın yeni tərtibatında (2011) Abdulla

---

[18] Тагиев, Ф. История города Баку в первой половине XIX века (1806-1859) / Ф. Тагиев. - Баку: Элм, - 1999. – 195 с.

[19] İlkin, Q. Bakı və bakılılar / Q.İlkin, − Bakı: NURLAR Nəşriyyat Poliqrafiya Mərkəzi, − 2006. − 384 s., İlkin, Q. Köhnə Bakını tanıyırsanmı / Q.İlkin; red.: A.İsabəyli. - II nəşri. - Bakı : Şirvannəşr, - 2004. - 116 s.

[20] Valiyev, A. City profile: Baku // *Cities,* - 2013. vol. 31, - p.625-640.

Məhəmmədcanovun “Daşkənd” əsəri və b. Bu məqalələr Daşkəndin tarixi, sivilizasiyası və inkişafı haqqında geniş məlumatları əhatə edir. Devid Makkenzi bu araşdırmalara əlavə olaraq “Daşkənd keçmişdə və günümüzdə” adlı məqaləsində Daşkəndin tarixində dönüş nöqtəsi olan hadisələri tədqiq etmişdir.

Türkiyə araşdırmaçılarından A.Çolpan Kavuncunun 2012-ci ildə hazırladığı doktorluq dissertasiyası Daşkəndlə bağlı aparılan geniş miqyaslı tədqiqatlardan biridir. Dissertasiyada Daşkəndin məhəllə quruluşu və yeni Daşkəndin formalaşması prosesi araşdırılmışdır. Fərhad Maksudov, Tümen Somuncuoğlu, A.Ç.Kavuncunun “Türk dünyasının paytaxtları” kitabı üçün hazırlanmış “Daşkənd” məqaləsində Daşkəndin qədim dövrü, Çar Rusiyası və Sovet Rusiyası idarəçiliyi altındakı dövrləri, müstəqillik dövrü əhatə olunmuş və Daşkənd bir çox cəhətdən tədqiq edilmişdir.

Tədqiqat işində istifadə olunan və Daşkəndşünaslıq üçün mühüm yer tutan mənbələrdən biri də “Daşkənd Ensiklopediyası”dır[21]. N.Tukliev tərəfindən özbək dilində yazılmış əsərdə Daşkəndlə bağlı çox sayda mövzulara yer verilmişdir. Əsərdə Daşkəndin tarixinə, ədəbiyyatına, memarlığına, musiqisinə və sivilizasiyasına təsir göstərən bir çox mövzular araşdırılmış və izah edilmişdir. Bu tədqiqat həm də müstəqillik əldə etdikdən sonra Özbəkistanda Daşkəndlə bağlı yazılmış əsas əsərlərdən biridir. Müstəqilliyin ilk illərində Özbəkistanda araşdırmaların əksəriyyəti rus dilində aparılıb, özbək dilində olan araşdırmalar da kiril əlifbası ilə yazılıb ki, bu da həmin araşdırmalardan istifadəni müəyyən qədər çətinləşdirir. Yalnız XXI əsrin birinci rübündən etibarən Özbəkistanda latın əlifbası ilə elmi araşdırmaların aparılmasına başlanmışdır. Ümumilikdə Özbəkistan, xüsusilə Daşkənd haqqında öyrəndiyimiz bu yeni araşdırmalara R.Şamsutdinovun “Özbəkistan tarixi” kitabı nümunədir[22]. Daşkənddəki müsəlman həyatı və Daşkənd bazarları haqqında məlumat verən tədqiqatçılardan digəri də Yusin Skaylerdır. Onun “Türküstan: Rus Türküstanı, Kukon, Buxara

[21] Туклиев, Н. Тошкент энсиклопедия / Туклиев, Н. − Тошкент: Комуслар Бош Тахририяти nəşriyyatı, − 1992. − 495 s.
[22] Shamsutdinov, R. O’zbekıston tarıxı / R.Shamsutdinov. − Toshkent: Akademnashr, − 2019. − 576 s.

və Qulcaya səyahət qeydləri" kitabı təkcə Daşkəndlə məhdudlaşmır, həm də Özbəkistanın coğrafiyası haqqında müxtəlif məlumatlar verir[23].

Məlumdur ki, müxtəlif əsrlərdə, xüsusən də VIII əsrdən başlayaraq İslam dini Orta Asiyaya yayılmağa başlayandan sonra İslam alimləri də bölgə haqqında yazmışlar. Daşkənd şəhərinə həsr olunmuş ilk əsər Məhəmməd Salehin "Daşkənd tarixi" əseridir[24]. Bu kitab XIX əsrdə şəhərin tarixi və coğrafiyasına dair yeganə yerli və ən əhatəli kitabdır. Müəllifin öz əli ilə yazdığı orijinal fars nüsxəsi Özbəkistan Elmlər Akademiyasının arxivindədir. 25 il ərzində yazılmış və iki cilddən ibarət kitabda şəhərin tarixi Orta Asiyada mövcud olan iqtisadi, siyasi və mədəni həyat kontekstində verilmişdir.

2007-ci ildə Edmund Bosvort tərəfindən hazırlanan "İslam dünyasının tarixi şəhərləri" kitabında da Daşkənd və Bakı haqqında məlumat verilir. Tədqiqatların əksəriyyəti siyasi tarix baxımından yazılıb və tarixi prosesdə Bakıda və Daşkənddə baş verənlərə dair izahatlardan ibarətdir. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olur ki, iki şəhəri müqayisə edən bir araşdırmaya rast gəlinməmişdir. Bundan əlavə, mövcud olan araşdırmalar birtərəflidir. Onlarda dominant xüsusiyyətlər və ya tarixi prosesin bir hissəsi qiymətləndirilmişdir.

Ayrı-ayrılıqda Bakı və Daşkənd araşdırmalarını müqayisə etsək, demək lazımdır ki, Bakı araşdırmaları həcm baxımından öndədir. Hər iki şəhəri xüsusi dinamika ilə izah edən araşdırmalar vardır. Bakı ilə neft əlaqəsinə istinad edən bir çox araşdırmalar olsa da, digər tərəfdən də Daşkəndlə pambıq arasındakı əlaqə də diqqətdən kənarda qalmamışdır. Bundan əlavə, iki şəhərin araşdırmalarında rus dili ümumiyyətlə xarici dil kimi ön plana çıxır. Bakı ilə bağlı araşdırmalarda Daşkənd araşdırmalarına nisbətən ana dilinin geniş yayıldığını qeyd edə bilərik. Bundan əlavə, Bakı

[23] Скайлер, Ю. Туркистон: Россия Туркистони, Кукон, Бухоро ва Гулжага саёхат кайдлари / Ю.Скайлер. − Тошкент: НМИУ, − 2019. − 336 s.
[24] Уринбоев, А., Буриев, О. Тошкент Муҳаммад Солиҳ Тавсифида (XIX ACR) / А.Уринбоев, О.Буриев. – Тошкент: Узбекистон Ср «Фан» Нашриети, - 1983. – 56 s.

haqqında yazılan türk dilində akademik araşdırmalar da vardır. Daşkənd araşdırmalarının müstəqillikdən əvvəl əksəriyyətinin dili isə əsasən rus dilidir. Müstəqillik əldə etdikdən sonra şəhərlə bağlı bəzi araşdırmaların yerli dillərdə aparılması təsadüfi deyil. Dissertasiyada Daşkəndlə bağlı istifadə edilən akademik tədqiqatların dili isə ingilis dilidir. Bu əsərlərdə, hər iki şəhər tarix, iqtisadiyyat, demoqrafiya, mədəniyyət, memarlıq və incəsənət kimi alt sahələr baxımından izah edilmişdir. Əsərlər əsasən dövrün məlumatlarını çatdırmaqla məhdudlaşırlar. Həmin əsərlərdən fərqli olaraq, hazırkı dissertasiyada iki şəhərin XIX və XX əsrlərdə adı məşhurlaşdırılan hər cür dinamikaya diqqət edilmiş, elmlərarası araşdırma edilməsinə diqqət göstərilmişdir. Bununla bərabər, hər iki şəhərin qloballaşan dünyada milli şəhər kimliyinin formalaşmasına təsir edən amillər ön plana çıxarılmışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Bakı və Daşkənd nümunəsində şəhər kimliyi; predmetini isə, XIX-XX əsrlərdə Bakı və Daşkənd şəhər kimliklərinin formalaşmasına təsir edən amillər və şəhərlərin müqayisəsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi araşdırılan və öyrənilən mənbə bazası əsas alınmaqla, şəhər anlayışının mahiyyətini, formalaşmasını, inkişafını tarixi aspektdən araşdırmaq və müəyyən etməkdir. Tədqiqat işində qarşıya qoyulan məqsədə çatmaq üçün aşağldakı vəzifələr müəyyənləşdirilmişdir:

- İlkin şəhərlərin yaranmasına, inkişafına və transformasiyasına səbəb olan amilləri müəyyən edib araşdırmaqla, Azərbaycan tarixşünaslığında bu sahədə mövcud olan boşluğu qismən doldurmaq; Bakı və Daşkənd şəhərlərini bu amillər kontekstində müqayisə etmək;
- Şəhər kimliyi anlayışını təhlil etmək, bu kimliyin formalaşmasına təsir edən amilləri araşdırmaq: Şəhər kimliyi konsepsiyasını Bakı və Daşkənd şəhərləri üzərindən təhlil etmək;
- XIX-XX əsrlərdə Bakı və Daşkəndin dəyişməsi və inkişafını şərtləndirən səbəbləri müəyyən etmək;
- XIX-XX əsrlərdə Bakı və Daşkənd şəhər mədəniyyətlərinin fərqli və oxşar cəhətlərini aşkara çıxarmaq, iki şəhər sivilizasiyasını (kimliyini) müqayisə etmək;

- Modernizm, postmodernizm, şəhərləşmə, şəhərliləşmə kimi şəhərşünaslıqda önə çıxan terminlər çərçivəsində Bakı və Daşkənd şəhərlərini ayrı-ayrılıqda və müqayisəli təhlil etmək;
- Təhlil prosesində şəhər və mədəniyyət anlayışları arasındakı əlaqələrə diqqət çəkərək, şəhər mədəniyyətini meydana gətirən dinamikaları müəyyən etmək; Şəhər mədəniyyətinin formalaşması nəticəsində, Bakı və Daşkənd şəhərlərinin malik olduğu mədəniyyət nümunələrini təhlil etmək.

**Tədqiqatın metodları.** Dissertasiyanın metodoloji əsasını tarix elminin nəzəriyyələri və şəhərlərlə bağlı tədqiqat aparan sosiologiyanın metod və prinsipləri təşkil edir. Bu araşdırmada müqayisəli üsuldan xüsusi olaraq istifadə edilmişdir. Problemin tədqiqi üçün siyasi, elmi-nəzəri metodlardan (analiz və sintez, ümumiləşdirmə, tarixi yanaşma və s.) istifadə edilmişdir. Müxtəlif materiallar və faktlar toplanaraq sistemləşdirmiş, ümumiləşdirmələr aparılmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Aparılan tədqiqat aşağıdakı müddəaların müdafiəyə çıxarılmasına imkan verir:

- Bakı və Daşkənd şəhər sivilizasiyalarının da formalaşmasında, qərb sivilizasiyasında olduğu kimi, iqtisadiyyat, siyasət, ticarət, incəsənət, din, müharibə və s. amillər mühüm rol oynamışdır;
- Oxşar və fərqli xüsusiyyətlərə malik olan Bakı və Daşkəndin şəhər mədəniyyətlərinin və şəhər kimliklərinin formalaşmasında müxtəlif dinamikalar müəyyənedici olmuşdur. Bakı neftin təsiri ilə Qafqazın sənaye mərkəzinə çevrilərkən, eyni təsiri Daşkənddə pambıq etmişdir;
- Hər iki şəhərin kimliyinin formalaşmasında "rus obrazı"nın böyük rolu olmuşdur;
- Bənzər tarixi proseslər yaşayan Bakı və Daşkənd özünəməxsus mədəniyyətlərə sahibdirlər və bu mədəniyyətləri şəhərlərdə nümayiş etdirirlər. Bu mənada, hər iki şəhəri "kimlikli şəhərlər" olaraq müəyyənləşdirmək mümkündür.
- Bakı və Daşkənd tarixi prosesdə öz mədəniyyətlərinin əks olunmasına önəm verən, öz mədəni mirasını ön plana çıxaran, olduğu

coğrafiya ilə bütünləşərək kimlik formalaşmasına məruz qalan şəhərlərdir;

- Hər iki şəhər müstəqillik əldə etdikdən sonra şəhər kimliklərinin qorunması və gələcək nəsillərə çatdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirməkdədirlər;
- Günümüzdə modernizm, post-modernizm və qloballaşma kimi cərəyanlar Bakı və Daşkəndin şəhər kimliklərinin formalaşmasına əhəmiyyətli təsir göstərməkdədir;
- Oxşar hekayələrə sahib iki şəhər kimlik mövzusunda fərqliliklərə sahib olmuş, xüsusən müstəqillik əldə etdikdən sonra özünə aid bir yol müəyyənləşdirməyə çalışmışlar. Bu baxımdan Daşkənd bir vasitə kimi tarixi keçmişindən daha çox istifadə etdiyi halda, Bakı beynəlxalq, müasir şəhər yaratmaq səyi içərisindədir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyini aşağıdakı müddəalarla xülasə etmək olar:

- Bakı və Daşkənd şəhərləri ilk dəfə şəhərşünaslıq kontekstində araşdırılmışdır;
- Bakı və Daşkəndin şəhər kimliklərinin müqayisəsi ilk dəfə aparılmışdır;
- Bakı və Daşkənd şəhərləri ilk dəfə həm tarixi aspektdə, həm də modernizm, postmodernizm və qloballaşma çərçivəsində müqayisə edilmişdir;
- Hazırki dissertasiya Azərbaycan tarixşünaslığında şəhər kimliyi sahəsində ilk elmi araşdırmadır;
- İlk dəfə olaraq Bakı və Daşkəndin "kimliyə" sahib olub-olmaması qiymətləndirilmiş, XIX-XX əsrlərdə onların sivilizasiyalarını/kimliklərini formalaşdıran amillər müqayisə edilmişdir;
- Şəhərlə mədəniyyətin əlaqəsi araşdırılmış, xarici ölkə araşdırmaçılarının tədqiqatlarında mövcud olan "Şəhərlər bir mədəniyyət mərkəzi, mədəniyyət daşıyıcısı və mədəniyyəti qoruyan mərkəzlər olaraq hesab edilməlidir" fikri Azərbaycan tarixşünaslığına gətirilmiş və onların əsasında müqayisəli təhlil aparılmışdır;
- Azərbaycan tarixşünaslığında daha əvvəl araşdırılmamış, şəhərlərin mədəniyyət/kimlik qazanmasına kömək edən amillər bu

araşdırmada ilk dəfə təhlil edilmişdir: yeməklərin/kulinariyanın, qəbiristanlıqların, geoloji quruluşun və hətta metronun Bakı və Daşkənd şəhər kimliyinə təsiri izah və müqayisə edilmişdir;

- Neftin Bakı üçün mənası məlumdur. İqtisadi cəhətdən bir neçə dəfə və ya dəfələrlə tədqiq edilən neft, bu araşdırmada ilk dəfə şəhər kimliyi baxımından araşdırılmış, hətta neft qoxusunun şəhərin kimliyinə və bakılılara təsiri də qiymətləndirilmişdir;
- Məlumdur ki, şəhər araşdırmaları, bir çox elm sahələrini əhatə etməkdədir. Bu baxımdan, hazırki dissertasiyada Bakı və Daşkənd şəhərləri sadəcə tarixi baxımdan deyil, həmçinin sosiologiya, psixologiya, folklor, ədəbiyyat, memarlıq kimi bir çox elm sahələrinə aid məlumat və materialları da əhatə etməklə araşdırılmışdır. Bu baxımdan dissertasiyanın elmlərarası araşdırmanın məhsulu olduğunu söyləmək mümkündür.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işinin materiallarından şəhərşünaslıq, şəhər sivilizasiyası (mədəniyyəti), şəhər kimliyi, Bakı və Daşkənd şəhərlərinin tarixi, mədəniyyəti, Bakı - Daşkənd münasibətlərinə və müqayisəsinə həsr ediləcək tədqiqat işlərinin, monoqrafiyaların, dərs vəsaitlərinin və məqalələrin yazılmasında, şəhər araşdırmaları ilə məşğul olan dövlət strukturlarının praktik fəaliyyətlərində istifadə oluna bilər. Tədqiqat prosesində toplanmış materiallardan ali və orta ixtisas məktəblərində müvafiq problemlər üzrə mühazirə və seminarların keçirilməsində istifadə edilə bilər. Bundan başqa, Bakı və Daşkənd şəhərlərinin müqayisəsi türk ölkələrini anlamağa kömək edəcək. Tarixi mənşəyi oxşar olan və eyni ideoloji qüvvələrin təsiri altında olan şəhərlərlə də müqayisələr aparmaq mümkün olacaqdır. Bu baxımdan dissertasiya verəcəyi məlumatlarla praktik əhəmiyyət kəsb edir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin Azərbaycanda və xaricdə çap etdirdiyi elmi məqalələrdə, müxtəlif elmi-praktik konfrans və simpoziumlardakı məruzələrində öz əksini tapmışdır. Müəllif dissertasiya ilə bağlı 6 məqalə, 3 tezis yazmış və 8 simpoziumda çıxış etmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin Tarix fakültəsi "Türk xalqları tarixi" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, on bir yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqat işinin girişi 31.058 işarədən ibarətdir. I fəsil "Tarixi prosesdə şəhər: tərifi, tarixi və xüsusiyyətləri" adlanır, dörd yarımfəsildən ibarətdir və 66.831 işarə həcmindədir. "Tarixi perspektivdən şəhər mədəniyyəti: Bakı və Daşkəndin ümumi tarixi" adlanan II fəsil dörd yarımfəsildən ibarətdir və 91.693 işarə həcmindədir. "XIX-XX əsrlərdə Bakı və Daşkənd şəhər mədəniyyətlərinin müqayisəsi" adlanan III fəsil dörd yarımfəslə bölünür və 77.879 işarə həcmindədir. Nəticə hissəsində əldə olunan əsas elmi nəticələr əksini tapmışdır və 12.385 işarədən ibarətdir. Dissertasiyanın ümumi həcmi isə 279.879 işarədən ibarətdir.

## II. DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqatın **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, problemin öyrənilmə səviyyəsi və mənbəşünaslıq bazası təhlil edilir, nəzəri-metodoloji məsələlərə aydınlıq gətirilir, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, işin elmi yeniliyi və praktiki əhəmiyyəti göstərilir.

**I fəsil "Tarixi prosesdə şəhər: tərifi, tarixi və xüsusiyyətləri"** adlanır və dörd yarımfəsildən ibarətdir. Bu fəsildə şəhərin tərifi verilmiş, şəhər quruluşunun formalaşmasına səbəb olan amillər izah edilmiş, urbanizasiyanın davam etməsi üçün zəruri olan şərtlər vurğulanmışdır. Qədim şəhərlərin bugünkü şəhər quruluşuna təsiri də bu bölmədə müzakirə olunan mövzular sırasındadır[25].

Fəslin **"Şəhər təsviri"** adlanan **1-ci yarımfəslində** qeyd edilir ki, müxtəlif dillərdə mövcud olan şəhər tərifləri, mədəniyyət sözü ilə əlaqələndirilir. Ümumilikdə şəhərin əhalisinə nisbətən dar coğrafi

---

[25] Kirkpatrick, A. The image of the city in antiquity: tracing the origins of urban planning, hippodamian theory and the orthogonal grid in classical Greece: / Master Thesis. / - Victoria, 2015. – 97 p.

bazaya malik olan ailələr, peşə qrupları, sosial təbəqələr, təriqətlər və s. kimi müxtəlif heterogen qrupları özündə birləşdirən mürəkkəb məskunlaşma qrupu[26], müxtəlif soykökündən olan insanların meydana gətirdiyi bir mərkəz[27] olması ilə bağlı təriflər bu yarımbölmədə açıqlanmış, tarixi prosesdə şəhər anlayışının dəyişməsi dəyərləndirilmişdir.

Fəslin **"İlk şəhərlər və şəhərlərin inkişafına təsir edən amillər"** adlanan **2-ci yarımfəslində** Hind və Nil vadisi, Mesopotamiya, Anadolu və Cənubi Amerika kimi yerlərdə ilk şəhərlərin meydana çıxması və bu şəhərlərin meydana gəlməsindəki oxşarlıqlardan bəhs edilir[28]. İlk şəhərlər qurulduqdan sonra bu şəhərlərin inkişafına təsir edən din, coğrafi mövqe, su ehtiyatları, kənd təsərrüfatı, müharibələr, ticarət, təbii fəlakətlər, incəsənət və idman fəaliyyətləri kimi amillər vurğulanır. Bildirilir ki, bu amillər tarixi prosesdə şəhərlərin inkişafına təsir etməklə yanaşı, onların məhvinə də səbəb ola bilər.

Fəslin **"Şəhər tədqiqatlarının əsas istiqamətləri: Bakı-Daşkənd kontekstində"** adlanan **3-cü yarımfəslində** urbanizasiya, cəmiyyət, icma, modernizm-postmodernizm kimi anlayışlar "şəhər tərifi" kontekstində izah edilir.[29] Şəhər tədqiqatlarında tez-tez istifadə olunan bu terminlər xüsusi olaraq Bakı və Daşkənd üçün qiymətləndirilmişdir. Fəsildə şəhər insanlarının dəyişilməsi və tabe olmaları lazım olan xarakter urbanizasiya meyli kimi göstərilir. Regional fərqlər, iqtisadi vəziyyət, təhsil səviyyəsi kimi amillər urbanizasiya və urbanizasiyanın bölgələr arasında fərqli olmasına səbəb olur. Bu səbəbdən şəhərlərdən fərqli olaraq "camaat-cəmiyyət"in formalaşmasını görürük. Şəhərin vətəndaşları "cəmiyyət", şəhərlilərlə müqayisədə səmimi münasibətlərin davam

---

[26] Yörükan, A. Şehir Sosyolojisinin ve İnsan Ekolojisinin Teorik Temelleri / A.Yörükan. - Ankara: Nobel Yayınları, - 2006. – 278 s.

[27] Sennett, R. Ten ve Taş: Batı Uygarlığında Beden ve Şehir / R.Sennett. - İstanbul: Metis Yayınları, - Tərcümə edən :Tuncay Birkan, - 2014. – 387 s.

[28] Reader, J. Şehirler, / J.Reader. - İstanbul: YKY, - Tərcümə edən: Fatine Bahar Karlıdağ, - 2007. - 355 s.

[29] Keleş, R. Kentleşme Politikası / R.Keleş. - Ankara: İmge Kitabevi Yayınları, - 1996. – 703 s.

etdirildiyi kəndli icmaları isə "camaat" kimi ifadə edilirdi[30]. Bölmənin sonrakı hissəsində modernizm və postmodernizmin təsiri altında olan şəhərlərin vəziyyəti qiymətləndirilir, Bakı və Daşkəndin nə dərəcədə müasir, nə dərəcədə postmodern olmasından bəhs edilir.

Fəslin **"Şəhər kimliyi"** adlanan **4-c~~i~~ü yarımfəslində** vurğulanır ki, insanlar kimi şəhərlərin də şəxsiyyətləri/kimlikləri vardır. Coğrafiya, tarix, ədəbiyyat, mədəniyyət, folklor, memarlıq, qastronomiya, dil, din, siyasət, iqtisadiyyat kimi bütün sahələrin təsiri nəticəsində formalaşan şəhər kimliyi hər şəhərdə eyni olmaq məcburiyyətində deyil. Şəhərin imicinə təsir edən, hər bir şəhərin fərqli ölçüləri və şərhləri ilə öz xüsusiyyətlərinə malik olan şəhər kimliyi[31] anlayışının Bakı və Daşkənd şəhərlərində olub-olmaması məsələsi qaldırılıb. Bununla yanaşı, bölmədə şəhərlərin kimliyinə xələl gətirən amillərə də diqqət yetirilir. Bu vəziyyətin qarşısını almaq üçün milli dildən bir vasitə kimi istifadə edilməsi və onun şəhərdə yayılması nümunə kimi göstərilir[32].

Dissertasiyanın **II fəsli "Tarixi perspektivdən şəhər mədəniyyəti: Bakı və Daşkəndin ümumi tarixi"** adlanır və dörd yarım fəsildən ibarətdir. Bu bölmədə mədəniyyətin ümumi tərifi verilmiş, şəhər və sivilizasiyanın əlaqəsi vurğulanmışdır. Şəhər sivilizasiyasını təşkil edən amillərə diqqət yetirilərək, Bakı və Daşkəndin şəhər sivilizasiyasına malik şəhər nümunələri olduğu izah edilib. Sonra isə Bakı və Daşkənd sivilizasiyalarını formalaşdıran siyasi proseslər vurğulanıb.

II fəslin **"Mədəniyyət anlayışı və onu yaradan amillər"** adlanan **1-ci yarımfəslində** ümumi olaraq sivilizasiyanın / mədəniyyətin tərifindən bəhs edilir. Məlum olduğu kimi, Qərb dilləri və Şərq dilləri "sivilizasiya" terminini "şəhər" sözündən götürmüşlər. Bu səbəbdən şəhər və sivilizasiya arasındakı əlaqə araşdırma mövzumuz olmuşdur.

---

30 Ülken, H.Z. Cemaat // Sosyoloji Sözlüğü. - İstanbul: Milli Eğitim Basımevi, - Yayına Hazırlayan: H.Z.Ülken, - 1969. – s.56.

31 Çöl, Ş. Kentlerimizde Kimlik Sorunu ve Günümüz Kentlerinin Kimlik Derecesini Ölçmek İçin Bir Yöntem Denemesi: / Doktora Tezi. / - İstanbul, 1998. – 334 s.

32 Ayaz, E.S. Milli Kimliğin Kurucusu ve Koruyucusu Olarak Dil. // - Bişkek: Uluslararası Orta Asya Sempozyumu Bildiriler Kitabı, - 2018. – s.610-627.

İnsanların həyatı, yemək mədəniyyəti, geyim tərzi, mentaliteti kimi bir çox şeyi ehtiva edə bilən sivilizasiyalar bölgədən bölgəyə dəyişir. Sivilizasiya bütün humanitar elmləri əhatə edir. Coğrafiya, sosiologiya, iqtisadiyyat və sosial psixologiya kimi elmlər sivilizasiyanı izah etməyə kömək edir[33]. Mədəniyyətlər sintez nəticəsində yaranır. Məsələn, müəyyən bir coğrafiyada fəaliyyət göstərən İslam mədəniyyəti türk, hind, ərəb, iran kimi orijinal mədəniyyətlərin təsirindən sonra yaranmış, inkişaf edən bir sivilizasiyadır. Bu bölmədə Cəmil Meriç, İbrahim Kafesoğlu, F.Braudel, Ziya Gökalp və İbni Haldun kimi alimlərin sivilizasiya görüşləri də açıqlanır. Bu alimlərin razılaşdıqları şey sivilizasiyanın əhatə edən və birləşdirici xüsusiyyətidir. Həm də sivilizasiya cəmiyyətlərin öz adət-ənənələri, mentaliteti və yığılması ilə milli dəyərlər çərçivəsində istehsal etdikləri hadisələr kimi də izah edilir. Bu bölmədə sivilizasiyanın insanlar, kənd təsərrüfatı, urbanizasiya, aristokratik həyat, din, coğrafiya, idarəetmə forması, siyasət və texnologiya kimi amillərlə inkişaf etdiyi, yayıldığı və ya təsirini itirdiyi xüsusilə vurğulanır.

II fəslin **"Şəhər və mədəniyyət münasibəti"** adlanan **2-ci yarımfəslində** şəhər-sivilizasiya əlaqəsi vurğulanır. Mədəniyyət şəhərdə yaranır, şəhər mədəniyyətin bir hissəsidir. Tarixi prosesdə yaranan ilk böyük mədəniyyətlər şəhər inqilabları ilə meydana çıxmışdır. Mesopotamiya, Çin, Hindistan, Cənubi Amerika, Misir, Anadolu kimi şəhərlərin ilk nümunələrinin meydana çıxdığı yerlər böyük mədəniyyətlərə çevrilmişdir. Mədəniyyət şəhər ilə birgə ümumiləşir. Memarlıq, incəsənət, gündəlik həyatın bütün növü şəhərdə mədəniyyətin əks olunmasında mühüm rol oynayır. Şəhər və mədəniyyət bir-birini müəyyən edən, yaradan və formalaşdıran dinamiklərdir. Şəhər mədəniyyəti; inkişaf etmiş və ideal şəkildə qabaqcıl cəmiyyəti ifadə edir. Bu təriflərlə yanaşı, şəhəri mədəniyyətin beşiyi kimi qələmə verən tədqiqatçılar da var. Şəhərlər vasitəsilə mədəniyyətin izlərini görmək mümkündür. Hər mədəniyyət bir şəhər yaratmışdır. Mədəniyyətlərin özlərinə məxsus şəhərləri vardır. Bu, təkcə memarlıq üslubu baxımından deyil, həm də həyat

---

[33] Braudel, F. Uygarlıkların Grameri / F.Braudel, - Ankara: İmge Kitabevi, - Tərcümə edən: Mehmet Ali Kılıçbay, - 2001. – 613 s.

tərzi baxımından da gözə çarpan fərqdir. Eyni şəhərdə iki fərqli mədəniyyət söz sahibidirsə, bu fərqliliyi şəhərdə də görmək mümkündür. Çünki hər iki mədəniyyətdə şəhərə öz mədəni dəyərlərini qatıb. Zaman keçdikcə şəhər həyatı sivilizasiyanın/mədəniyyətin əksi kimi ədəbiyyatda öz yerini tutmuşdur.

II fəslin **"XIX əsrə qədər Bakı və Daşkəndin ümumi vəziyyəti/tarixi"** adlanan **3-cü yarımfəslində** Bakı və Daşkənd şəhərlərinin XIX əsrə qədərki siyasi vəziyyətindən bəhs edilir.

Siyasi baxımdan tarix boyu müxtəlif güclərin toqquşduğu yer olan Bakı və bütün Şirvan III əsrdən Sasani imperiyasının tərkibinə daxil olmuşdur[34]. VII əsrdə Xəzərlər, Sasanilər, Bizanslılar və Ərəblər bölgədə hökmranlığı ələ keçirmək üçün hakimiyyət uğrunda mübarizə aparırdılar. Bu tarixdən sonra Cənubi Qafqazın qalan hissəsi və Bakı ərəblərin nəzarətinə keçdi. Əvvəlcə Əməvilərin, sonra Abbasilərin nəzarətində qalan bölgə, daha sonra Səlcuqluların əlinə keçmişdi[35]. Şəhərin tarixində ilk siyasi və mədəni yüksəliş XII əsrin sonlarına təsadüf edir. Səlcuqlu dövlətinə bağlı regional siyasi güc olan Şirvanşahların inzibati mərkəzi Şamaxı idi. 1192-ci ildə Şamaxıda güclü zəlzələ baş verdi və şəhərə böyük ziyan dəydi. Bu zəlzələdən dərhal sonra Bakı Şirvanşahlar sülaləsinin paytaxtı oldu. Şəhərin tarixində 1501-ci ildən başlayan Səfəvilər dövrü bölgə üçün dönüş nöqtələrindən birini təşkil edir. Bölgədə həm dini, həm də ideoloji transformasiya məhz bu tarixlərdə Şah İsmayılla başladı[36]. 1736-cı ildə İranda hökmranlığı öz əlinə alan Nadir şahın 1747-ci ildə saray çevrilişi nəticəsində öldürülməsi ilə İranın Azərbaycan üzərində nəzarəti zəiflədi və Azərbaycanda xanlıqlar dövrü başladı. Xanlıqlar daxili və xarici siyasətdə birləşə bilmədiklərindən zamanla hər cür təhdidlərə açıq oldular. Cənubi Qafqaza və Xəzər dənizi bölgəsinə nəzarət etmək istəyən çar Rusiyası bunun yolunun Bakını

---

[34] Chaumont, M.L. Albania // Encyclopædia Iranica, - 1985. – Vol.I, Fasc. 8, - p.806-810.

[35] Ашурбейли, С.А. История города Баку / С.Ашурбейли. – Баку: Азернешр, - 1992. - 408 с.

[36] Ataşer, G.A., Sayfutdinova, L. Bakü // Türk Dünyası Başkentleri. - Ankara: SFN Yayınları, - Editorlər: Murat Yılmaz, A. Çolpan Kavuncu, - 2014. – s. 261-313.

almaqdan ibarət olduğunu düşünürdü[37]. Bu baxımdan, Qafqaz baş komandanı Sisianov 1803-cü ildə İmperator I Aleksandra Bakının və digər Azərbaycan xanlıqlarının işğal planını vermiş, nəticədə 1803-1805-ci illər arasında Gəncə, Qarabağ, Şəki, Şamaxı xanlıqları Rusiya tərəfindən tutulmuşdur. Rus sərkərdəsi Sisianovun qətlə yetirilməsindən narahat olan Hüseyn Qulu xan və ailəsi 1806-cı ildə şəhəri müdafiə etmədən rus sərkərdəsi Bulqakova təslim etmişdi[38].

Daşkənd də indiyədək Özbəkistanın inzibati mərkəzi olmuşdur[39]. Daşkəndin bir məkan kimi əhəmiyyəti onun zamanla müxtəlif güclər tərəfindən işğalına yol açmışdır. Tarix boyu müsəlman Əməvilər (Küteybə Bin Müslim), Çin, Abbasilər, Qarluqlar, Samanilər, Qaraxanilər, Xarəzmşahlar kimi müxtəlif güclərin hakimiyyəti altında olmuşdur. XI əsrdə şəhər güclü daxili və xarici divarları və rifahını qorumaq üçün tikdiyi qalaya görə "daş şəhər" mənasını verən indiki adını almışdır[40]. 1220-ci ildə Çingiz xanın orduları tərəfindən işğal edilən Daşkənd Əmir Teymurun dövründə (1340-1405) gündəmə gəldi. Uluqbəy hakimiyyəti dövründə şəhər ticarət, incəsənət, ədəbiyyat və memarlıq kimi sahələrdə inkişaf etmişdi[41]. Sonralar özbəklərin nəzarətinə keçən Daşkənd qazaxlarla özbəklərin mübarizə yerinə çevrildi. Daşkəndin sərvəti Teymuri əsilli bir çox varisləri özünə cəlb etmişdir. Daşkəndi Buxara və Kokand xanlıqlarından başqa köçəri qazaxlar və kalmıklar da ələ keçirmək istəyirdilər. Nəhayət, 1740-cı ildə Buxara qüvvələri Daşkəndi qazax rəhbərlərindən aldılar. Daşkənd XVIII əsrin ortalarında Sibzar (Sebzor), Kökçe (Kukça), Beşağaç, Şeyhantahur kimi 4 "Daxa"dan ibarət olub və bu dövr şəhər tarixində "Dörd

---

[37] Тагиев, Ф. История города Баку в первой половине XIX пека (1806-1859) / Ф. Тагиев. - Баку: Элм, - 1999. – 195 с.

[38] Aşurbeyli, S. Bakü Şehrinin Tarihi / S.Asurbeyli. - İstanbul: Teas Press, - Tərcümə edən: Sevinç Üçgül, - 2017. - 504 s.

[39] Barthold, V.V. Taşkent // İslam Ansiklopedisi [44 cilddə]. − İstanbul: TDV Basımevi, − c. 4, − 1991. − s.317-322.

[40] Sahadeo, J. Russian Colonial Society in Tashkent: 1865-1923 / J.Sahadeo. – Bloomington: Indiana University Press, - 2007. – 317 p.

[41] Муҳаммаджонов, А. Кадимги Тошкент: Тарихий Ва Археологик Лавҳалар / А. Муҳаммаджонов, - Тошкент: Узбекистон Сср «Фан Нашриети», - 1988. – 60 s.

hakim" dövrü adlandırılıb[42]. Lakin 1874-cü ildə Şeyxantahur bölgəsinin hakimi Yunus hocanın digər bölgələr üzərində hökmranlığı Daşkənd dövlətinin müstəqil siyasi vahid kimi yaranmasına zəmin hazırladı[43]. Daşkəndin inkişafı Yunus hoca dövründə də davam etmişdir. Yunus hocadan sonra şəhər idarəsində əvvəlcə kokanlılar, sonra isə ruslar göründü.

II fəslin **"XIX-XX əsrlərdə Bakı və Daşkəndin ümumi vəziyyəti / tarixi"** adlanan **4-cü yarımfəslində** XIX-XX əsrlərdə Bakı və Daşkəndin ümumi vəziyyəti dəyərləndirilmişdir. Tarixi proses nəzərə alınmaqla izah edilən bu yarımfəsildə Bakı və Daşkənddəki dönüş nöqtələri qeyd olunur.

1806-cı ildən Bakının idarəsində söz sahibi olan Rusiya bölgənin inkişafına da səbəb olmuşdu. 1847-ci ildə ilk quyunun qazıldığı şəhər[44] əsrin sonlarına doğru dünyada nefti ilə tanınan, neft şirkətlərinin diqqətini cəlb edən izdihamlı mərkəzə çevrilmişdir. 1859-cu ildə inzibati mərkəzin Şamaxıdan Bakıya köçürülməsi bu inkişafı dəstəklədi. Çar dövrü Bakısı daha çox iqtisadi rolu ilə ön plana çıxırdı. O, həm imperiyanın, həm də dünyanın aparıcı neft şirkətlərinin tələblərinə cavab verən bir şəhərə çevrildi. Neft Bakıya təkcə iqtisadi deyil, həm də mədəni təsir göstərdi və bu dövrdə təhsil, incəsənət kimi sahələrdə Qərb yenilikləri meydana çıxdı. Bakıda yaşayan neft zənginləri şəhərin inkişafına xüsusi önəm verirdilər.[45] Sovet dövründə bu inkişaf dayanmadı və davam etdi. Yetmiş ilə yaxın davam edən sovet idarəsi də öz sistemini yaratdı. Sosialist qaydalarına uyğun siyasət həyata keçirən yerli hökumətlər cəmiyyəti dəyişdirmək üçün bir çox vasitələrdən istifadə edirdilər. Cəmiyyətə birbaşa təsir edən təhsil, din, dil kimi fundamental dinamikalar yeni

---

[42] Муҳаммаджонов, А. Қанғ Кадимги Тошкент Ва Тошкентликлар (Тарихий Лавҳалар) / А.Муҳаммаджонов, - Тошкент: <<Sharq>> Нашриёт, - 2009. - 127 s.

[43] Karakulak, M. & Özkan, M. Taşkent Hanlığı'nda İlk Rus Elçisi Dmitriy Telyatnikov'un Missyonu ve Faaliyetleri (1797) // Avrasya İncelemeleri Dergisi, - 2020. - № 9, - s.13-27

[44] Valiyev, A. City profile: Baku // *Cities,* - 2013. vol. 31, - p.625-640.

[45] Bayrakdar, O. K. Bir dönüşüm dinamiği olarak petrolün Bakü şehir kimliğine ve şehirleşmesine etkisi // - Skopje Ankara: Turkish Studies-Social, - 2020. № 15, - s.3398.

ideoloji baxışın cəmiyyətə çatdırılması üçün nəzərə alınan əsas amillərdəndir. Bundan əlavə, şəhərlərin də bu prosesdə sosialist prinsiplərinin olduğu və bu prinsiplərlə qurulduğu məlumdur[46].

Dəyişikliklərin baş verdiyi digər şəhər Daşkənd idi. 1865-ci ildə ruslar tərəfindən işğal edilmiş, 1867-ci ildə Türküstan General Qubernatorluğunun mərkəzinə çevrilmişdi. İlk general-qubernator Fon Kaufman idi. Kaufmanın təşəbbüsü ilə Orta Asiyanın mərkəzində yeni şəhər salınmağa başlandı. Bölgəyə gedən tədqiqatçılar Çar Rusiyasının əsasını qoyduğu şəhər üçün "*yeni şəhər*", "*şəhərin Avropa hissəsi*" kimi ifadələr işlətdiyi halda, mövcud olan ənənəvi Daşkənd "*köhnə şəhər*" və "*şəhərin Asiya tərəfi*" olaraq adlandırılmışdır[47]. Yeni Daşkənd müasir rus memarlığına uyğun dizayn edilmişdir. Şəhər digər rus şəhərləri kimi geniş küçələr və ağaclarla örtülmüş yollar salınmaqla yaradılmışdır.[48] Yeni şəhərin zəlzələyə davamlı olması üçün birmərtəbəli evlər tikilirdi. Dəyişməyə və yenilənməyə davam edən, siyasi və iqtisadi vahid olaraq bölgənin cazibə mərkəzinə çevrilən Daşkəndin 1884-cü ildə bəzi qəzetlərdə Rusiya imperiyasının əksər şəhərlərindən daha sərfəli və yaşamaq üçün daha əlverişli olduğu bildirilirdi[49]. Daşkəndin Çar Rusiyası dövründə başladığı transformasiya Sovet İttifaqı dövründə də davam etdi. Sovet hakimiyyəti ilə birlikdə köhnə və yeni Daşkənd arasındakı ziddiyyət aradan qaldırılmamışdı. Köhnə özbək məhəllələrinin çoxu hələ də yerində idi. Bundan başqa, şəhərin Rusiya tərəfi müasir görünüşlü idi. 1960-cı illərdən əvvəl şəhərin bu hissəsində əhalinin ehtiyaclarını ödəmək üçün tikinti işləri intensiv şəkildə davam edirdi. Sovet dövründə şəhəri daha da yaşıllaşdırmaq üçün müxtəlif kanal layihələri həyata keçirilmişdi. Şəhərin mərkəzində 9-14 mərtəbəli, zəlzələyə davamlı binalar ucaldılmış,

---

[46] Sevim, E. Rethinking Roots of Socialist City: / Master Thesis. / - Ankara, 2015. – 90 p.

[47] Maksudov F., Somuncuoğlu, T., Kavuncu Ç. Taşkent // Türk Dünyası Başkentleri. - Ankara: SFN Yayınları, - Editörler: Murat Yılmaz, A.Çolpan Kavuncu, - 2014. – s. 505-583.

[48] Bayrakdar, O. K. 19. Yüzyıl Taşkent şehir medeniyetine Rus Etkisi // - Bakü: Tarix ve Onun Problemləri, 2022. № 1, - s.93-98.

[49] MacKenzie, D. Tashkent Past and Present // Russian Review, - 1969. - № 28(2), - p. 207-216.

Daşkənddə Orta Asiyanın ilk metrosu inşa edilmişdi. Bu dövrdə Daşkənd Asiyanın inkişafı üçün nümunəvi mərkəz halına çevrilmişdi.

Dissertasiyanın **III fəsli "XIX – XX əsrlərdə Bakı və Daşkənd şəhər mədəniyyətlərinin müqayisəsi"** adlanır və üç yarımfəsildən ibarətdir. Bu fəsildə XIX-XX əsrlərdə Bakı və Daşkəndin şəhər mədəniyyətlərini və kimliklərini formalaşdıran dinamikalar araşdırılmış və bir-biri ilə müqayisə edilmişdir. Araşdırmada iki şəhərin fərqli və oxşar xüsusiyyətlərə malik olduğu qeyd edilmişdir.

III fəslin "**XIX – XX əsrlərdə Bakının mədəniyyəti"** adlanan **1-ci yarımfəslində** XIX-XX əsrlərdə Bakı şəhər sivilizasiyasını formalaşdıran amillər izah olunur. Zəngin tarixə malik olan və uzun müddət yaşayış məskəni olan Bakı şəhəri XIX əsrdən etibarən yenilənməyə başlayıb. Neftin təsiri ilə iqtisadi cəhətdən inkişaf edən şəhər həm də mədəni sıçrayış prosesinə qədəm qoyub. Bu bölmədə tarix, iqtisadiyyat, siyasət, qostronomiya, dil, din, su ehtiyatları, ticarət və memarlıq kimi dinamiklərin Bakı sivilizasiyasını formalaşdırdığı xüsusi vurğulanıb. Bu amillər arasında sivilizasiyanın formalaşmasında ən təsirli amil "ruslar" idi. İstər memarlıqda, istərsə də ictimai həyatın hər sahəsində rus təsirini görmək mümkün idi və şəhər bu mentalitenin əksi kimi ortaya çıxmışdı[50]. Fəsildə qeyd olunan dinamika baxımından Bakı şəhərinin sivilizasiyası və kimliyindən bəhs edilmiş, şəhərin sakinləri tərəfindən qəbulu da dəyərləndirilmişdir.

III fəslin **"XIX–XX əsrlərdə Daşkənd mədəniyyəti"** adlanan **2-ci yarımfəslində** Daşkənd şəhər sivilizasiyası araşdırılmışdır. Bu yarımfəsildə qeyd edilir ki, Daşkənd şəhər mədəniyyətinin formalaşmasında tarix, siyasət, iqtisadiyyat, dil, din, ticarət, su ehtiyatları, memarlıq abidələri, pambıq, ikinci dünya müharibəsi, memarlıq, geoloji vəziyyət, ticarət kimi amillər təsirli olmuşdur. Bakı kimi Daşkənd də 1865-ci il rus işğalı ilə yeni dövrə qədəm qoydu. Çar dövründə başlayan rus ekspansionizmi sovet dövründə də davam etdi və həm şəhərə, həm də Daşkənd əhalisinə

---

[50] Grant, B. Cosmopolitan Baku // Ethnos: Journal of Anthropology, - 2010. - № 75:2, - p. 123-147.

təsir etdi. Bundan başqa, "pambıq" kənd təsərrüfatı məhsulu kimi Daşkəndin şəxsiyyətinin formalaşmasında da yer tutur. Rayonun pambıqçılıq üçün əlverişli olması[51] Rusiyanın şəhərə üz tutması üçün əsas səbəblərdən biri idi. İstehsalı həvəsləndirilən bu məhsul sovet dövründə də siyasi məqsədə çevrildi.

III fəslin "**Bakı – Daşkənd şəhər mədəniyyətlərinin müqayisəsi"** adlanan **3-cü yarımfəslində** iki şəhər mədəniyyətlərinin oxşar və fərqli xüsusiyyətləri üzə çıxarılır. Araşdırmalar nəticəsində iki şəhər arasında daha çox oxşarlığın olduğu üzə çıxır. Bu oxşarlıqları aşağıdakı kimi ümumiləşdirmək olar:

- XIX əsrdə Rusiya imperiyası hər iki şəhəri işğal etmiş və bu da şəhərlərin taleyinə təsir etmişdir.
- Çar Rusiyası vasitəsilə hər iki şəhərdə inzibati dəyişikliklər baş vermiş; Daşkənd Türküstan General qubernatorluğunun mərkəzi, Bakı isə Zaqafqaziya quberniyasının mərkəzi olmuşdur.
- Sovet dövründə də Rusiya təsiri davam etmiş və şəhərlərdə ideoloji transformasiyalar başlamışdır.
- Hər iki şəhər üçün rus obrazı bu günə qədər davam edən bir dinamik kimi görünür.
- Hər iki şəhər uzun illərdir davam edən rus təsirinə qarşı mübarizə apararaq, öz milli kimliklərini ortaya qoymağa çalışıbdır.
- Hər iki şəhər geosiyasi baxımdan strateji nöqtədə yerləşir. Onların İpək Yolu marşrutu üzərində qurulması şəhərlərdə ticarət həyatına mühüm təsir göstərmişdir.
- Müstəqillikdən sonra hər iki şəhərdə milli-mənəvi dəyərlərə üstünlük verilib.
- Hər iki şəhər türk şəhərlərinin orijinal bir nümunəsidir və şəhər kimliklərinə bu xüsusiyyəti də əlavə etmişlər.

İki şəhər arasında çox sayda oxşarlıqlarla yanaşı, fərqlər də vardır. Araşdırmalarımızda bu fərqlər aşağıdakı kimi aşkar edilmişdir:

---

[51] MacKenzie, D. Tashkent Past and Present // Russian Review, - 1969. - № 28(2), - p. 207-216.

- Bakı vahid şəhər kimi inkişaf etdiyi halda, Daşkənd ikili şəhər kimi meydana çıxdı.
- Bakıda neft şəhərin inkişafına təkan verərkən, Daşkənd özünü pambıqçılıqla göstərdi.
- Zəlzələ zonasında olan Daşkənd daş memarlığın geniş yayıldığı bir və ya iki mərtəbəli binalarla tikildiyi halda, Bakıda belə bir problem yaşanmayıb.
- Bakı su ehtiyatları baxımından qeyri-kafi şəhər olub. Daşkəndin yerləşdiyi bölgə su ehtiyatları ilə zəngindir.
- Daşkənddəki məhəllə sistemi Bakıdan fərqli bir xüsusiyyətə malikdir.
- Bakı Xəzər dənizinin sahilində yerləşən liman şəhəridir, Daşkəndin belə imkanı yoxdur.
- Müstəqillik əldə etdikdən sonra Bakı dünya ilə inteqrasiya baxımından daha sürətli addımlar atdı və bir çox beynəlxalq tədbirlərə ev sahibliyi etdi. Daşkənd beynəlxalq miqyasda daha passiv qalıb.

Dissertasiyanın "**Nəticə**" hissəsində aparılan araşdırmaya yekun vurulmuş, tədqqatın əsas müddəaları ümumiləşdirilmiş və əldə edilən nəticələr təhlil edilmişdir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı dərc edilmiş elmi işlərində öz əksini tapmışdır:**

1. Bir dönüşüm dinamiği olarak petrolün Bakü şehir kimliğine ve şehirleşmesine etkisi // - Skopje Ankara: Turkish Studies-Social, - 2020. № 15, - s. 3387-3402.
2. Bir medeniyet taşıyıcısı olarak osmanlı şehrine bir bakış // - Bakı: Bakı Universitetinin Xəbərləri, - 2020. № 4, - s.132-143.
3. Bir Anlayış Olaraq Şəhər Şəxsiyyəti // - Bakı: Tarix və onun problemləri, - 2021. № 3, - s. 47-51.
4. Ticaretin Kent Gelişimine Etkisi: Karanlık Çağın Aydınlık Şehri Venedik // - Bakı: Tarix və onun problemləri, 2021. № 2, - s.36-42.
5. Bir Flaneur Olarak Covid-19 Sonrası Mekânsal Değişimin İzlerini Sürmek: Bakü Fevvareler Meydanı Örneği // - Ankara: Hacettepe Üniversitesi Edebiyat Fakültesi Dergisi, 2021. № 38 (2), - s.597-611.
6. 19. Yüzyıl Taşkent şehir medeniyetine Rus Etkisi // - Bakı: Tarix və onun problemləri, 2022. № 1, - s.93-98.
7. Kent içi ulaşımın ulus kent kimliğine etkisi: Bakü örneği // - Ankara: İdealkent, - 2022. № 13(36), - s.688-714. (həmmüəllif: Bahar Özsoy)
8. Ulusallaşma yolunda kent mekanlarının önemi: Bakü azadlık meydanı örneği // Uluslararası Sosyal ve Beşeri Bilimler Kongresi, - Bakı: Azərbaycan, - 17-18 Noyabr, - 2021, - s. 372-380. (həmmüəllif: Fatma Betül Aydemir Baş)
9. Milli kent kimliği oluşumunda dilin önemi: Bakü Örneği // IV. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler Sempozyumu, - Kıbrıs: İlim Üniversitesi, - 17 Dekabr, - 2020, s.625-670.
10. Sovyetler Birliği’nin Dağılmasından Sonra Milli Kent Kimliği Oluşturma Çabası ve Bunun Kentte Yansımaları: Bakü Örneği // Kayfor Orta Asya,- Taşkent: Özbekistan, -23-24 Sentyabr, - 2021, - s.112-113.
11. Milli kent kimliği oluşumunda dilin önemi: Bakü Örneği (tezis) // IV. Uluslararası Türklerin Dünyası Sosyal Bilimler

Sempozyumu, - Kıbrıs: İlim Üniversitesi, - 17 Dekabr, - 2020, s.74-75.

12. 20. Yüzyıldan günümüze Azerbaycan tarih yazımında Merkezi Asya ile alakalı araştırmaların analizi (tezis) // International Eurosia Congress on Scientific Researches and Recent Trend, - Baku: Azerbaijan, - 6-7 December, -2020, - s.339-340.



Dissertasiyanın müdafiəsi 15 Noyabr 2023-cü il tarixdə saat 11:00 Bakı Dövlət Universiteti nəzdində fəaliyyət göstərən ED 2.20 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1148, Bakı, Zahid Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universiteti kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Bakı Dövlət Universiteti rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11.10.23 il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.09.2023

Kağızın formatı:A5

Həcm:48.085

Tiraj:100